**UOT 398;801.8**

# ŞƏRQ EPİK ƏNƏNƏSİ VƏ ONUN ÖZÜNƏMƏXSUSLUQ SİSTEMİ

**Vəfa Azər qızı OSMANOVA**

*Qərbi Kaspi Universiteti,*
*İngilis dili və ədəbiyyatı kafedrasının doktorantı*

vafa.azeri@gmail.com

## XÜLASƏ

Qədim dövrdə bütöv mədəniyyət Şərq xalqlarına məxsus idi. Şərq mədəniyyəti güclü inkişaf etmiş, mədəni-mənəvi dəyərlər sistemi kimi formalaşmağa başlamışdır. Şərq xalqlarının epik poeziyasına nəzər saldıqda üstünlük qəhrəmanlıq dastanlarına verildiyini görə bilərik. Bu məqalə Şərq xalqlarında epik ənənənin yaranması, onların spesifik cəhətlərindən bəhs edir.

**Açar sözləri:** epik ənənə, Şərq xalqları, folklor, Ramayana, Bozqurd

## ВОСТОЧНАЯ ЭПИЧЕСКАЯ ТРАДИЦИЯ И ЕЕ ОСОБЕННОСТИ

## РЕЗЮМЕ

В древние времена вся культура принадлежала восточным народам. Восточная культура начала формироваться как сильно развитая, культурная и моральная система ценностей. Когда мы смотрим на эпическую поэзию восточных народов, мы видим, что предпочтение отдается героическим эпосам. Эта статья посвящена возникновению эпической традиции в восточных странах и их специфическим особенностям.

**Ключевые слова:** эпическая традиция, восточные народы, фольклор, Рамаяна, Бозгурд

## EASTERN EPIC TRADITION AND ITS PECULIARITY SYSTEM

## SUMMARY

In ancient times, the whole culture belonged to the Eastern people. Oriental culture developed strongly, has begun to form as a system of cultural and moral values. When we look at the epic poetry of the Eastern people, we can see that preference is given to heroic epics. This article deals with the emergence of an epic tradition in the Eastern nations and their specific features.

**Keywords:** epic tradition, Eastern people, folklore, Ramayana, Bozgurd

Şərq epik mühiti tarixi, dinamik mənzərəsi, funksional xarakteri baxımından ciddi faktura ilə səciyyələnir. Mif, əfsanə, rəvayət, nağıl, dastan örnəkləri bunun möhtəşəm nümunəsi olaraq müxtəlif kontekstlərdə yanaşmaları gərəkli edir. Burada təkcə bədii düşüncənin ayrı-ayrı yaddaş modelləri deyil, həm də arxitektonik sistemin özünün mahiyyəti, min illərin dərinliklərindən daşıyıb gətirdikləri müxtəlif şəkildə boy göstərir. Epos yaradıcılığı bu zənginlikdə mühüm olandır və onun tipoloji təhlilə gətirilməsi etnokulturoloji konseptləri müəyyənləşdirmək xarakteri ilə seçilir. "Yaradılış", "Bilqamıs", "Şu", "Ərqənəkon", "Bozqurd", "Törəyiş", "Köç", "Oğuz Kağan", "Manas", "Şan qızı", "Alpamış", "Uralbatır", "Koblandıbatır", "Corabatır", "Canqar", "Edige", "Kitabi-Dədə Qorqud", "Koroğlu" və s. kimi abidələr mahiyyətində mükəmməl bir sistemlə faktlaşır. Ezoterik və ekzoterik konseptlərdə məsələnin mahiyyətinin müəyyənləşməsi tarixi-mədəni prosesin fasiləsizliyini, dinamikasını açmaq üçün ciddi material verir.

Analoji yanaşmalarda özünə yer alan örnəklərin informasiya yükü (mif və folklor örnəklərində olanlar), məsələn, göyün guruldaması, ildırımlar, qasırğalar, susuzluqlar müxtəlif səpkilərdə yozumunu tapırdı və bunların arxasında formalaşan inamlar, təsəvvürlər tədrici prosesdə əfsanə, rəvayət, mif və s. şəklində qəlibləşirdi. Son olaraq Tanrı // İnsan münasibətlərində faktlaşır və daha geniş kontekstlərdə mifə, magiyaya, inam və etiqadlaradoğru təbii (bəlkə də kortəbii) proses keçirirdi. Dünyanın yaranışı, ilk insan, kosmoqonik anlayışlar və s. kimi mif, əfsanə örnəkləri Şərq bədii düşüncəsində ilkin bilgi və təsəvvürlərin faktı olaraq müxtəlif səviyyələrdə zamanları adlayaraq günümüzə qədər gəlib çatmışdır. Məlum olduğu kimi, "mif ibtidai cəmiyyətlərin dünyanı dərkinin ifadə formasıdır. İbtidai cəmiyyətlərdə yaranan mif bir növ ibtidai insanın təbiətlə özü arasında mövcud olan əlaqəsini təyin etməyə xidmət edirdi. İnsanın ondan kənarda mövcud olan mistik qüvvələrə inamı bu düşüncə tərzini miflərə ötürməsinə səbəb oldu" (2, s.6). Bunların dərki və insanın bunlarla bağlantı yaratmaq istəyi müxtəlif törənləri, inam və təsəvvürləri qəlibləşdirdi. İlkin təsəvvürlər, insanın təbiətin bir hissəsi kimi dərk və anlamaq cəhdləri mifə doğru gəlişi əsas edirdi.

Zəngin xəyal dünyası, fövqəladə hadisə və xəyallarla bəzəmə meyili insanın həyat mücadiləsinin bir hissəsi olaraq faktlaşırdı. Onun yaşam və ötürülmə xarakteri (hətta cəmiyyət içərisində yayımı) isə ilkin inamlardan mifə qədər uzun bir mərhələ ilə səciyyələnir. Mifə gəliş və mifdən mədəni düşüncənin digər möhtəşəm layı eposa irəliləyişin zamanı bir hüdudsuzluqla müəyyənləşir. Şərq folklor mühiti, eləcə də "Avesta", "Mahabharata", "Şahnamə" və s. Abidələr tarixi-mədəni prosesin arxitektonikasını aydınlaşdırmaq üçün lazımı qədər material verir. "Qədim tarixi fakt və hadisələr üzərində nəşət tapan mioflərdə dini rəvayətlərin sintezi qanunidir. Bunlar qədim miflərə sonrakı dövrlərdə dinlərin, dini rəvayətlərin qoşulması ilə bağlıdır" (3, s.133). Həmin mədəniyyət laylarının eposa gəlişi müxtəlif səpkili yanaşmaları

faktlaşdırır və mükəmməl təsəvvürlə müəyyənləşir. "Oğuznamələr", eləcə də onun möhtəşəm nümunəsi "Kitabi-Dədə Qorqud" məsələnin mahiyyətini Oğuz cəmiyyəti timsalında olanları bədiilik və tarixilik müstəvisində lazımı qədər əhatələmək gücü ilə seçilir.

Dastanlar mətn potensiyası ilə məhz ilkin təsəvvürlərdən mif də daxil olmaqla bütün tarixi-mədəni, bədii-estetik sistemin özünü əhatə edə bilmək gücü ilə seçilir. Burada yalnız hadisə deyil, həm də dil gözəlliyi bir xətt olaraq faktlaşır. Mükəmməlliyi və lazımı qədər etnosun mənəvi gücünü ifadə edə bildiyi üçün bu nümunələr möhtəşəmlik qazanmışdır. Məhz ona görə də xalq arasında "ozanları hayqırmayan millət yetim kimidir" təsəvvürü formalaşmışdır. "Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə olardı, qaibdən dürlü xəbərlər söylərdi. Həqq Təala könlünə ilham edərdi" (4, s.14). Dədə Qorqud timsalında deyilən bu fikirlər özlüyündə ozanlara, aşıqlara bağlanır və onlara olan sevginin, inamın nümunəsi olaraq görünür. Türk xalqları ona görə də aşığı elin anası kimi uca tutmuşlar. Şərq epik ənənəsinin bir sistem olaraq epos / dastan səviyyəsində mükəmməlləşməsi həmin haqq aşıqlarının adı ilə bağlıdır.

Dastanlar tarixdə xüsusilə, yazının icadından əvvəl və sonra baş verənləri özündə əks etdirə bilmək imkanları ilə mühüm əhəmiyyət daşıyır. "Oğuz Kağan", "Alp-ər Tonqa", Törəyiş", "Bozqurd", "Köç", "Canqar", Kitabi-Dədə Qorqud", "Corabatır" və s. kimi abidələr xalqın sosial həyat tərzini mədəni-fəlsəfi dünyagörüşünü əks etdirə bilmək gücü ilə səciyyələnir. Millətin başından keçən (və ya başına gətirilən) müxtəlif hadisələr, fəlakət və xoşbəxliklər, məğlubiyyət və qalibiyyətlər, etnosu öz ardınca zəfərlərə aparan qəhrəmanlar, onların taleyi və haqqında formalaşan əhvalatlar bir bütöv olaraq dastanlarda özünə yer alır. Bilqamıs, Manas, Qazan xan, Canqar, Corabatır, Edige, Koroğlu fərd olaraq xalqı təmsil etsə də onların fəaliyyətində olanlar və zəfərlər hamısı ictimai xarakter daşıması ilə maraq doğurur.

Eposlarda, xüsusilə Türk eposlarında həddən artıq tarixi həqiqətlər vardır; cəmiyyətin bəzi şərtlər daxilində inancını, dəyərlərini və cəmiyyət məntiqini günümüzə qədər gətirib çıxaran dəyərli tarixi xəzinələrdir. "Türk xalqlarında, onun bir qövmü olan Azərbaycanda çox-çox dərinliklərə gedib çıxacaq dastan ənənəsi var. Bu xalqımızın məişətini, tarixini, keçib gəldiyi yolu öyrənmək üçün zəngin material verir. Xalqın həyatının elə bir tərəfi yoxdur ki, bu və ya digər şəkildə orada özünə yer tapmasın. Düzdür, başqa folklor janrlarında da xalq məişətinin müxtəlif tərəfləri özünə yer alır. Ancaq dastanlar daha çox informasiyaya yüklüdür" (1, s.48). Şərq epik ənənəsi bütün mahiyyəti, üfiqi və şaquli qatları ilə informasiyaya, ədəbi-mədəni potensiyanın ifadəsinə hesablanmışdır. Məsələn, "Yaradılış", "Ərqənəkon", "Bozqurd" öz mahiyyəti etibarilə müxtəlif tarixi dönəmlərin hadisələrini özündə ifadə etmək gücü ilə səciyyələnir. Altay türkləri arasından toplanmış "Yaradılış" dünya nizamını, dini kitablarda, mif, əfsanə örnəklərində rast gəldiyimiz başlanğıcı ifadə etmək xüsusiyyəti ilə maraq doğurur. M.Kaşğarinin "Divani-Lüğətit-Türk" əsərində kiçik

epizodları qeyd olunan "Alp-ər Tonqa" isə bir başqa tarixi olayın ifadəsinə köklənmişdir. Bütün dastan nümunələri məhz öz informasiya və bədiilik meyarları ilə sistemləşir.

"Oğuznamələr" sırasında möhtəşəmliyi ilə seçilən "Oğuz Kağan" dastanı Oğuzlarla bilgiləri, təsəvvürləri, həm də onların cahanşümul dövlət düşüncəsini aydınlaşdırmaq üçün əsaslı mənbədir. Oğuz Kağanın dünyaya gəlməsi, fərdi keyfiyyətləri, qəhrəmanlıqları, yürüşləri, oğlanlarını gündoğana və günbatana göndərməsi"Oğuznamələr" sırasında möhtəşəmliyi ilə seçilən "Oğuz Kağan" dastanı Oğuzlarla bilgiləri, təsəvvürləri, həm də onların cahanşümul dövlət düşüncəsini aydınlaşdırmaq üçün əsaslı mənbədir. Oğuz Kağanın dünyaya gəlməsi, fərdi keyfiyyətlərinin məqsəd və məramı və s. bir bütöv olaraq özünə yer alır. Mənbələr və ehtimalla Oğuz // Mete paralellərini də diqqətdən keçirmiş və onların tarixi aspektini bir tərəf kimi xüsusi olaraq vurğulamışlar. Metenin atası Tuman e.ə. 206-cı ildə öldükdən sonra o taxta keçir. Mete xanın hökmdarlığı dövrü Hun dövlətinin qızıl dövrü sayılır. Bu dövrdə hunlar Çin ordusunu məğlubiyyətə uğradıb onları "sülh və qohumluq anlaşması"na imza atmağa məcbur etmişlər. Dastanlar bütün müstəvilərdə bu və ya digər dərəcədə tarixə, tarixi olana bağlanır və başlanğıcını oradan götürür. "Oğuz Kağan" da öz funksional xarakteri ilə buna yüklüdür. Bu dastan əvvəllər şifahi şəkildə ortaya çıxmış və daha sonra yazıya köçürülmüşdür. "Həm başlanğıcı, həm sonluğu, həm həcmi, həm də ənənəvi olmayan təhkiyəsi, deyim tərzi, səpkisiylə uyğurca "Oğuznamə" göz açandan eşidib alışdığımız, yaddaşlara, duyğulara köçürdüyümüz bütün başqa dastanlardan, eləcə də başqa "Oğuznamə"lərdən seçilir. Qeyd etmək gərəkdir ki, "Oğuznamə"nin uyğur versiyasını başqa türk əsatir və dastanlarına, eləcə də, qədim dünya xalqlarının bir sıra qəhrəmanlıq abidələrinə bağlayan süjet və mif doğmalığı, xarakter doğmalığı bu həcmi kiçik, dəyəri isə böyük dastanın başqa addaşları və janrdaşları ilə müqayisədə öyrənilməsinə geniş meydan açır" (5, s.6). "Oğuz Kağan" eposunun türk xalqları folklorundakı yeri, türk xalqları ədəbiyyatına təsiri ilə bağlı müxtəlif səviyyələrdə fikir-mülahizələr söylənmişdir. Onun mahiyyətinin sistemli müəyyənliyi, tipoloji təhlili baxımından daha ciddi təhlillərə ehtiyac duyulur. Oğuz Kağan haqqındakı əfsanə və hekayələr, həmçinin tarixi faktlar ilə əlaqədar olaraq V.V.Radlov, G.N.Potanin, V.V.Bartold, A.M.Şerbak və A.N.Kononov kimi alimlər maraqlı mülahizələr irəli sürmüşlər.

Türk dünyası dastanları arasında indiyənə qədər sistemli şəkildə davamlı olaraq tədqiq edilməyən epos nümunələrindən biri "Nart" dastanlarıdır. Çoxəsrlik tarixi ənənələri ilə böyük təsəvvür formalaşdıran Qaraçay-malkarlar Şimali Qafqazda yaşayan digər xalqlarla birgə "Nart" dastanlarının yaradıcılarıdır. Qafqaz mifologiyasına görə, nartlar bugünkü Qafqaz xalqlarının ataları sayılan əfsanəvi bir xalqdır. Epos mətnlərinin verdiyi informasiyaya görə, Nartlar atı əhlilləşdirmiş, dəmiri kəşf etmişlər. Mərdliyin, cəsarətin, yaxşılığın və Qafqaz mədəniyyətinin simvolu olaraq yaddaşlarda təsəvvür formalaş-

dırmışdır. Ağlı və bacarığı ilə seçilən bu döyüşçülər öz düşmənlərini döyüş meydanlarında deyil, ağıl və bacarıqları, qabiliyyətləri ilə məğlubiyyətə uğratmışlar. Fövqəladə varlıq və hadisələr Nart dastanlarının mövzu və mahiyyətini sərgiləyir.

Nart dastanları fərqli etnik köklərdən gələn Qafqaz xalqlar arasında geniş yayılmışdır. Qaraçay-malkar, adige, abxaz, osetin və çeçen-imüstəsna funksionallığı, mahiyyət dərinliyi ilə seçilir. Dastanın formalaşma və yayılma arealının spesifikası ilə bağlı müəyyən fikir və mülahizələr də yürüdülmüşdür. Burada Qafqaz xalqlarının əski yaddaşında oturuşmuş dəyərlər, arxaik təsəvvürlər özünə yer alır. Adige və Abxazlar Nart dastanlarının əsil yaradıcılarının özləri olduğunu iddia etmişlər. Qaraçay-Malkarların isə Nart dastanları ilə bağlı qənaətləri fərqlidir. Onların dediklərinə əsasən bu nümunələr köçəri-savaşçı xalqların təfəkkürünün və həyatının ifadəsidir. Daha doğrusu, bu dastanların əsil sahiblərinin Adige və Abxaz kimi məskunlaşan (oturuşmuş) xalqlar deyil, Qaraçay-malkarlardır. Qafqaz şimaldan gələn köçəri-döyüşçü kimmer, skit, hun-bulqar, xəzər, alan, qıpçak kimi türk qövmlərinin xələfləri olan Qaraçay-malkar zəngin folklor nümunələri ilə maraq doğurur. “Çoxəsrlik tarixi dövründə Qaraçay-malkar türkləri zəngin şifahi xalq yaradıcılığı örnəklərinin daşıyıcıları, eyni zamanda onlar Şimali Qafqazda yaşayan digər xalqlarla birgə “Nart” eposunun yaradıcılarından sayılırlar” (6, s.79). Oset alimi V.Abayev də Nart dastanlarının əsil sahiblərinin köçəri-döyüşçü atlı qövmlər olduğunu qəbul etmişdir.

Nart dastanlarının bütün variantlarında dəmirçi Nart qəhrəmanı Qaraçay-malkar Nart dastanlarında Debet, ya da Devet adlandırılır. Adige Nart dastanlarında dəmirçi Nart qəhrəmanı Tlepş adıyla qarşımıza çıxar. Abxaz-Abazin Nart dastanlarında eyni cəhətlərə malik dəmirçi Nartın adı Aynarıjdır. Oset nart dastanlarında isə dəmirçi tanrı xüsusiyyətinə bürünən bu obraz Kurdalaqon adlanır. Bütün bunlar Qafqaz xalqlarının Nart dastanlarında özünəməxsusluqları, mövcud epizodik fərqləri, həm də birləşdirici məqamları müəyyənləşdirir.

Nart Debet (yaxud Devet) mifoloji bir qəhrəman olaraq təsvir edilir. O, əlləriylə isti dəmiri döyə, ona istədiyi şəkli verə bilir. Quşların və bütün heyvanların dillərini bilir və onlarla danışır. Dastanda verilən bilgiyə görə, ilk at nalını Debet icad etmişdir. Nart döyüşçüləri atları ilə uzaq ölkələri fəth edə bilmişlər. Nart Debetin 19 oğlu varmış. Bütün bunlar dastanın mahiyyətindəki məzmunu, türk epos təsəvvüründəki ümumi sistemi aydınlaşdırır. “Bilqamıs”, “Oğuz Kağan”, “Manas”, “Alpamış”, “Bozqurd”, “Canqar”, “Corabatır”, “Koblandıbatır”, “Kitabi-Dədə Qorqud”, “Nart” kimi zəngin epos nümunələri öz daxili məzmunu, motivləşmə məqamları, struktur sistemi ilə bütöv bir təsəvvürlə müəyyənləşir. Məsələn, Şərq aləminin “Gilqamıs” dastanı özünün mükəmməlliyi və informasiya potensiyası ilə ciddi təsəvvür formalaşdırır. Gilqamış, Enkidu, Humbaba, Utnapişti surətlər qalareyası və oradakı hadisələrin xarakteri Şərq mühitinə və onun özünəməxsusluq çalarlarına bağlanır.

Şərq dastan ənənəsi və onun dinamik mənzərəsi müxtəlif təfsilatların tipoloji təhlilini gərəkli edir. Məsələn, bunların hadisə, motiv, süjet, struktur əsasında tipoloji təhlili epos yaradıcılığının genetik sistemini, tarixi mənzərəsini aydınlaşdırmaq üçün mühüm imkanlar yaradır. Hind, ərəb epos ənənəsi ilə aparılan təhlillər də bura daxildir. Məlum olduğu kimi, tarix səhnəsində hindlilərin üç böyük eposu ("Ramayana", "Marabharata" və "Harivamşa") olmuşdur. Bunlar, ədəbi-nəzəri fikirdə Şimali Hindistana aid eposlar olaraq vurğulanır. Qərb Hind, Benqal və Bombey versiyası adı ilə vurğulanan bu nümunələrdə mifoloji yaddaşın elementləri onları daha əski çağlara aparıb çıxarır. Bütün bunlar Şərq xalqlarının epik ənənəsinin qədim köklərə bağlandığını və ilkin təsəvvürlərdən orta çağlara qədər bir zamanı özündə ehtiva edə bilmək gücünü aydınlaşdırır. Şərq və Qərb kontekstində tipoloji araşdırmaların gərəkliliyini aktuallaşdırır.

**Ədəbiyyat:**

1. Allahmanlı M. Folklorşünaslıq məsələləri. Bakı: Elm və təhsil, 2012, s.284
2. Cəlil F. Mifologiyanın əsasları. Bakı: Mütərcim, 2018, s.136
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, s.477
4. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1978, s.184
5. Oğuznamələr. Bakı: Bakı Dövlət Universiteti, 1993, s.92
6. Tağısoy-Məmmədov N. Qaraçay ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016, s.312